

İltimas SƏMİMİ

## GÖY ÜZÜ

Bu da çiyinlərimdə
Yorğun-yorğun
Daşıdığım göy üzü.
Təbəssümü balıqların
Dəniz sevincinə bənzəyən.
Köksünə sökəndiyim
O şam ağacı arxamca
Nələr söyləyər, bilmirəm...
Kölgə qoxuyan
Bütün səslər
Daş-daş üstümə yeridikcə
İçimdə ilan-ilan qıvrılan bir dağ cığırı
Hönkür-hönkür ağlayır.

## TANRININ UNUTDUĞU ADAM

Desəm, inanmazsan,
Yolların ətəyindən
Sürüşüb düşən yuxusuzluğum,
Bax, belə qırıldı.
Nə sən arxaya dönüb baxdın,
Nə mən ardınca
Yüyürüb gələ bildim.
Büründüm yağışın pıçıltısına,
İçimdəki xatirələr
Ot-ot göyərdi.
Yarpaq-yarpaq boy atdı,
Sən səsə çevrilən yol,
Mən sükutun
Göz yaşında islanan yolçu.
Kimi dağ həvəsində,
Kimi dəniz...
Mən isə içimdəki tənhalığımı
Daşımaqdan yorulmuş
Tanrının unutduğu adam...

## XATİRƏLƏR SÖYLƏYİR

Hələ də yolların kölgəsində
İtirdiyim yuxumu axtarıram.
Ümidim bir yarpaq da boy atıb.
Bütün itirdiklərim
Bir kölgə.
Yuxum bir soyuq məzar,
Ardımca bir başdaşı yol gəlir.
Yuxusu qarışmış bir ovuc torpaq,
Bir parça daş,
Bir damla su...
Ovcunu aç,
Bəlkə, illərcə axtardığım ünvanı tapdım.
Göz yaşımla suvardığım ağaclar
İndi mənə xatirələr söyləyir.
Kiriməк olmur,
Dənizlə sözüm tutmadı,
Yığışıb getməliyəm...

## BU DA İNAM QAPISI...

Hələ bir az da
Qarışar torpağın yuxusu
Ayaqlarımın səsindən
Diksinən yollar kimi.
Heç nə səssiz-səmirsiz deyil,
Daş da, qaya da qabarır,
Sükutun da dili var.
Dənizin coşduğu kimi,
Ağacın göylərə boy atdığıtək.
Bir az külək əsəcək,
Bir az yağış yağacaq,
Bir az da qar.
Bəmbəyaz xatirələrimiz
Hardasa yayın bürküsünə bənzəyir.
Adladığımız yol,
Getdiyimiz ünvan bir qaşıq ümiddir.
Sən gözə görünməyən toz,
Mən yerə düşən bir damla yağış,
Hələ qapılar üzümüzə açıq,
Bu da inam qapısı...

## XATİRƏLƏRİM

Yaddaşımdan sürüşüb düşən
"Təsəlli" sözü arxamca yürüməkdədir.
Bu da sənsiz adladığım yol,
Dolandığım şəhər,
Baxdığım dəniz...
Daha heç nə əvvəlki kimi deyil,
Bütün fəsillər payız qoxuyur.
Çıxıb getməyə bir ünvan da yox,
Hər sabah içimə yüklənən yorğunluğumdur.
Bu da üzümə bağlanan sonuncu qapı,
Arxasında hönkür –hönkür ağlayan xatirələrim.

## QIRILMAMIŞDI

Udduğumuz hava,
Gəzdiyimiz torpaq
İnam qoxuyurdu.
Akvariumda üzən balıqların
Dənizdən xəbərsiz
Olduğu kimi.
İçimizdə ilan-ilan qıvrılan yolları
Sevə-sevə
Adlayıb gedirdik.
Hələ "ümid" kəlməsi
Əlimizdən düşüb qırılmamışdı.

## SUSURDUM

Qüruba sarı
Baxmaqdan bezikib,
Danışmağa bir arşın
Yol da tapmırdım.
Buludların ovcunda
Bir səs çırpınırdı.
Zamanın qoltuğunda bir kitab yol…
Sükutun dodaqları
Varaq-varaq açıldıqca
Susurdum...

## QARIŞIR YOLLARIN SÜKUTU

Hamı kölgəsi olmayan
Ümid adlı ağacın altında
Dincəlməyə can atır.
Öz içində
Qüruba sarı yürüyüb gedən
"Təsəlli" sözü yalquzaq kimidir;
Nə buluda çevrilə bilir,
Nə daşa.
Bəlkə də, düşüncələr
Öz kölgəsindən utanır.
Yarpaq-yarpaq yorulan səslər
Torpağa yıxıldıqca
Qarışır yolların sükutu.

## ƏSRLƏRİN YALQUZAQ KÖLGƏSİDİR

Gəl qalan
Vaxtımızı da,
Qoltuğumuza vurub qaçaq,
Daha zaman adlı
Ağacın kölgəsində
Dincəlmək mümkün deyil.
Ölüm qoxuyan otlar
Hardasa buraları köhnə qəbir kimi,
Adama xatırladır.
Uzaqda görülən qaraltı
Əsrlərin yalquzaq kölgəsidir;
Qurd-qurd uladıqca
Daşlar yarpaq-yarpaq titrəyir...

## RAHATLIĞIMDIR

Elə bil içimdə
Bir tabut ayaq tutub yeriyir.
Susuz səhraları xatırlayan
Xatirələrim bir səsdir,
Mənimlə birlikdə yol gedir.
Döydüyüm qapı
Əlimdən sürüşüb düşən rahatlığımdır.
Nə qədər xatırlasam da,
Unutduqlarım yadıma düşməz.
Bu hicran qoxuyan yağış
Üstümə yağdıqca
O şam ağacının kölgəsində
Görüşdüyümüz günlər
Daha çox yadıma düşür.